# İbtidai siniflərdə bayatıların tədrisinin şagirdlərin bədii-estetik dünyagörüşünə təsiri

**Səadət Baxşalı qızı Əsədova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** seadet.arif@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., dos. İ.M. Məmmədli,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** folklor, bayatı, tədris, didaktika, bayatıların tədrisi, estetik tərbiyə, bayatıların estetik tərbiyədə rolu, dəyərlər, şeirlərin tədrisi

**Ключевые слова:** фольклор, баяты, обучение, дидактика, обучение баятов, эстетическое воспитание, роль баятов в эстетическом воспитании, ценности, преподавание стихов

**Key words:** folklore, bayati, teaching, didactics, teaching of bayats, aesthetic education, role of bayats in aesthetic education, values, teaching of poems

Orta məktəbin qarşısında dayanan əsas məqsədlərindən birincisi şagird şəxsiyyətinin düzgün istiqamətdə formalaşdırılmasıdır. Şəxsiyyətin əsas cəhətlərindən başlıcası da onun nitq bacarıqlarının, təfəkkürünün inkişaf etdirilməsi, estetik tərbiyəsinin məqsədəuyğun olaraq sistemli şəkildə həyata keçirilməsi və lazımi səviyyəyə çatdırılması hesab olunur.

Təlim və tərbiyənin düzgün təşkilindən, müəllimin sinifdə dərsi məqsədəuyğun qurmasından, şagirdləri düzgün istiqamətləndirməsindən asılı olaraq şəxsiyyətin inkişaf etdirilməsi prosesi səmərəli şəkildə gerçəkləşir. Bilirik ki, müəllimin fəaliyyəti xüsusilə ibtidai siniflərdə daha həlledici rol oynayır. Məsələ ondadır ki, ibtidai siniflərdə şagirdlərin təfəkkürünün inkişaf etdirilməsi üçün ayrıca fənn yoxdur. Bu məqsəd bir çox fənlərdə paralel və mövzuların daxilində xüsusi şəkildə rellaşdırmalıdır. Əlbəttə, bu proses şagirdin müstəqil düşünməsinə və qərar verməsinə, həyati bacarıqlarının inkişaf etdirilməsinə səbəb olmalıdır. Bu məqsəd tədris proqramında nəzərdə tutulmuş fənlərin hər birinin bu və ya digər şəkil və formada məzmununda, məzmun xətləri və standartların tələblərində əksini tapır. Müəllim fənnin verdiyi imkanlardan maksimum səviyyədə istifadə edərək şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkşaf etdirilməsinə çalışmalıdır.

Hər sözü, kəlməsi, ifadəsi sınaqdan çıxmış zəngin xalq pedaqoji təcrübəsinin əsas elementlərini özündə əks etdirən, daxili qatlarında daşıyan şifahi xalq ədəbiyyatı nümunələri zəngin və faydalı tədris materialı kimi daima Azərbaycan ziyalısını, Azərbaycan müəllimini düşündürmüşdür. Beləcə, ayrıca tərtib olunmuş tədris resurslarında folklor janrlarından istifadə edilmişdir. Həmin nümunələrdən biri də bayatı janrıdır. "Bunlar (Bayatılar-S.Ə.) çox dərin mənalı, fəlsəfi, əxlaqi, ictimai fikirlər ifadə edən qısa, yığcam lirik parçalardır. Bayatı yaratmaq asan deyildir. Çünki dördcə misrada bədii və təsirli şəkildə tamamlanmış bir fikir ifadə etmək tələb olunur. Bayatı ən çox hisslə, həyəcanla, insanların daxili iztirabları ilə əlaqədar yaranır" (6, s. 198). Folklorşünas alim Paşa Əfəndiyevin fikirləri bayatının məzmun yükünün, onun ifadə etdiyi dərin ictimai, sosial, estetik təfəkkürün sübutu kimi qiymətləndirilməlidir.

Bu barədə ədəbiyyatşünas alim Mir Cəlal Paşayev yazırdı ki, "bayatılar mövzu etibarı ilə geniş, zəngin olsalar da, insanın daxili aləmini, qəlb həyatını, mütəəssir bir qəlbin sevinc, kədər, iztirab, sarsıntı, həyəcanlarını ifadə üçün ən münasib, müvafiq şeir formasıdır (14, s. 116.)

Uzun müddət Azərbaycanda dərslik sahəsində ən aparıcı müəlliflərdən olmuş, ibtidai siniflərdə Azərbaycan dili, əlifba, oxu dərsliklərinin müəllifi, pedaqoq alim prof. Y.Ş. Kərimov metodika vəsaitlərindən birində şeir nümunələrinin tədrisi ilə bağlı yazır ki, "Şagirdlərin hafizəsini möhkəmləndirmək, nitqini inkişaf etdirmək, dünyagörüşünü genişləndirmək, estetik zövqünü tərbiyə etmək baxımından şeirlər xüsusi əhəmiyyətə malikdir. Yaxşı şeir uşağın mənəvi aləmini zənginləşdirir, onda doğma dilin gözəlliklərinə həssaslıq tərbiyə edir. Yaxşı şeir uşağın qəlbinə gözəl musiqi əsəri qədər təsir göstərir" (11, s. 241)

Səviyyəli materiallar dərsliklərin məzmun bazası olmalıdır. Eyni zamanda onlarda mədəni dəyərlər aşılanmalı, şagirdlərin milli-mənəvi ruhda tərbiyə olunmasına, onların öz ailəsini sevməsinə, xalqına, onun dəyərlərinə hörmət etməsinə nail olunmalıdır. Şagirdin mənsub olduğu torpağı, vətənini sevməsinə, humanist olmasına, insan hüquq və azadlıqlarına, beynəlxalq aləmdə təsbit edilmiş bəşəri dəyərlərə hörmət etməsinə yönələn fikir və müddəalar əks etdirilməlidir. "Doğrudur, şagirdin fəaliyyəti yalnız dərsliklə deyil, həm də dərs vəsaitləri, əyani vəsait və didaktik materiallarla, təlimin digər vasitələri ilə, xüsusilə müəllimin nəzəri-metodik hazırlığı ilə şərtləşir və idarə olunur. Bununla belə, həmin vəzifənin həllində dərsliyin rolunu azaltmaq olmaz" (11, s. 57).

Bilirik ki, bayatıların böyük əksəriyyəti məzmun və xarakterik poetik xüsusiyyətlərinə, poetik cəhətlərinə görə qarşıya qoyulan tələblərə dəqiq cavab verir. Daxili qatına, formaca yığcam, məzmunca bitkin olmasına, az sözlə geniş məzmunu və tərbiyə keyfiyyətlərini əks etdirməsinə görə bayatılar estetik tərbiyənin aşılanmasında olduqca böyük əhəmiyyət daşıyırlar.

Deməli, tədris zamanı bayatıların məzmununda, onun ifadəliliyində, qısa ifadələrlə zəngin məzmun çatdırmasından səmərəli şəkildə istifadə etmək lazımdır. Müəllim bilməlidir ki, bayatıların mövzu dairəsi genişdir. Bayatılar görünüşcə, formaca yığcam, kiçik misralarının dərin qatında, ifadə yükündə vətən, qürbət, mərdlik-namərdlik, eşq-məhəbbət, sevgi, xoşbəxtlik, bolluq-bərəkət, ayrılıq, həsrət, intizar, istək-arzu, qəm-qüssə, üzüntü, öyüd-nəsihət, hörmət-ehtiram, xeyir-dua, qarğış, ağı, şənlik, toy-düyün və s. məzmunları ifadə edə bilir. Bayatılarda insana məxsus müsbət və gözəl xüsusiyyətlər, saf məhəbbət, həyat eşqi, qəm, kədər, ayrılıq, vətən sevgisi ifadə edilir və bununla, dostluq, sədaqət, humanizm meyilləri canlı, oynaq, şairanə bir dillə, az sözlə, böyük və dolğun fəlsəfi məna ilə ifadə olunmuşdur. Deməli, tədrisdə şagirdlərə həm bayatının oxu işi təşkil olunmalı, onların nitqlərini inkişaf etdirməli, həm də onların məzmunu ilə işləmək lazımdır. Şagird poetik cəhətdən keyfiyyətli nümunəni oxuyur, onun zövqü formalaşır, söz-sənət, ədəbiyyat haqqında təsəvvürləri yetişir, eyni zamanda məzmun onda tərbiyəedici rol oynayır. Gözəl şairimiz Xəlil Rza Ulutürk yazırdı ki, "bəşəri insan bədii təfəkkürlə formalaşır" (10, s. 33).

Müəllim lirik nümunələri tədris edərkən, şagirddə standartlara uyğun olaraq müəyyən bacarıqlar, vətəndaşlıq, vətənpərvərlik duyğuları aşılamaq istəyərkən onlara bayatılardan əzbərləməyi tapşırmalıdır. Şagird müəyyən mövzuda bayatını evdə sərbəst şəkildə də axtara bilər, özü onların içində əzbərləməyə daha rahat olanını, bir sözlə özünün bəyəndiyini seçə bilər. Diqqət edirsinizsə, bu tapşırıqla şagirdin seçim etmək, axtarış aparmaq, qərar vermək məsuliyyətləri və bununla da bacarıqları formalaşdırılır.

Bu gün təhsilin qarşısında əsas vəzifələrdən başlıcası hərtərəfli formalaşmış, milli və bəşəri dəyərlərə sahib şəxsiyyətin formalaşdırlması kimi məsuliyyətli bir vəzifə dayanır. Həmin vəzifənin icrası məktəbəqədər təhsil müəssisələrində, bağçalarda başlayır və ibtidai siniflərdə inkişaf etdirilir. Maraqlı bir faktı burada qeyd etmək istəyirəm. Elmi təhlil və araşdırmalar göstərir ki, "insan bütün ömrü boyu ona zəruri olan məlumatın təxminən 70%-ni 6 yaşa qədər olan dövrdə əldə edir"(16, 9). Bu yaş dövrü həm də ibtidai mərhələyə, I sinfə təsadüf edir.

Sonrakı bacarıqlar bazasının böyük əhəmiyyətli hissəsi də ibtidai sinfin digər pillələrində formalaşdırılır. Odur ki, müəllimlər bacarıqların, tərbiyənin əsas detallarının ibtidai siniflərdə aşılanmasına, reallaşdırlmasına çalışmalıdırlar. Və ibtidai sinfə qəbul olunan şagirdin təfəkkürünün, bacarıqlarının formalaşdırılmasında Azərbaycan dili fənninin xüsusi rolu və əhəmiyyəti vardır. Bu, müəllimin məsuliyyətini artırmalı, onu daha həvəslə tədris fəaliyyəti təşkil etməyə vadar etməlidir.

Bayatıların mövzuları çoxdur. Prof. Ş.A. Mikayılov yazırdı ki, "bayatılarda müxtəlif məzmun-adamların ağır məişət tərzi, məhəbbəti, vətən həsrəti, haqsızlığa və zülmə qarşı ümumxalq etirazı ifadə olunur" (13, s. 15). Bayatıların yuxarıda sadaladığımız mövzuları içərisində önəmli yerlərdən birini Vətən mövzusunda olanlar tutur.

Vətən mövzulu bayatı nümunlərində vətən həsrəti, vətən sevgisi əksini tapır. Belə ki, bayatılarda insanın harada olmağından asılı olmayaraq vətən üçün darıxmağını, vətən həsrətini, vətən sevgisini görürük. Bu bayatılardan aydın görürük ki, xalq öz ana yurdunu, onun təbii gözəlliklərini həmişə sevmiş və poetikləşdirməyə çalışmışdır.

Yağı gəldi yanıma,
Susamışdı qanıma,
Döndüm qürbət ellərdən,
Qüvvət gəldi canıma.

Bayatının misralarında qüvvətli nisgil, sevgi əks olunur. Və yaxud:

Kəkliyəm, fərəm sənsiz,
Düşübdür pərən sənsiz,
Yad eldə, yad ölkədə,
İnan, gülmürəm sənsiz.

Müstəqillik illərinin 30 ilini qaçqınlıqda, məcburi köçkünlükdə keçirən, ağır məişət və psixi şəraitdə yaşamış azərbaycanlılar üçün bu bayatılardakı fikir və ifadələr tanış hisslər, ovqat oyadır. Şagirdlərə tanış olan bu məqamların tədris işində istifadəsi, onların nəzərinə çatdırılması zəruridir. Müəllim şagirdlərə bu kimi halları aşılamaqla, onlarda vətənə, yurda bağlılıq tərbiyə etməklə sevgi hissi, sevgi duyğuları formalaşdırlmalıdır:

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi,
Vətən viran da olsa,
O, cənnətdən gözəldi.

Təsəvvür edin, bu bayatının tədris zamanı istifadə edilməsi vətən haqqında çox mükəmməl tərbiyəvi hisslərin formalaşdırlmasına gətirib çıxarar. Burada müəllim bayatı mətnini şagirdə oxutdurmalı, oxu işi təşkil edilməli, sonra bayatının sözləri üzrə də iş görülməlidir. İlin fəsilləri, "xəzəl", "viran", "cənnət" sözlərinin məna yükü, onların daşıdığı məzmun şagirdə aşılanır, onun estetik zövqünün formalaşdırlması üçün sistem qurulur. Pedaqoji-metodik araşdırmaların birində yazılır ki, "Ana dili və oxu dərsliklərində geniş əksini tapmış folklor nümunələri ilk növbədə şagirdləri həyat və cəmiyyət üçün hazırlayır. Şagirdləri cəmiyyətdə baş verən hadisələrlə, xalqın tarixi ilə, bədii yaradıcılıq inciləri ilə tanış edir, onlarda müstəqil fikir yürütmək, mülahizələr söyləmək qabiliyyətini formalaşdırır. Araşdırmalar göstərir ki, ana dili proqramlarında nəzərdə tutulan hər hansı bir folklor nümunəsi şagirdlərdə tədricən konkret tə-

fəkkürdən mücərrəd təfəkkürə keçmək imkanı yaradır" (7, s. 11). Şagird ona təqdim edilmiş bayatı nümunəsindəki deyim və ifadələri mənimsəyir, nitqində istifadə edir. Bununla da o, bayatıda öyrəndiyi ifadə ilə xalq ifadələrini, özünün, ailəsinin işlətdiyi ifadələri tutuşdurur, müqayisələr aparır, qruplaşdırır. Bu proses də onda müqayisə etmək, təhlillər aparmaq, tədris materiallarını dərindən mənimsəməklə estetik zövqünün formalaşması, nitqinin və təfəkkürünün inkişaf etməsi işini sürətləndirir.

Tədris prosesində müəllim şagirdlərlə bayatıların üzərində işləməli, onların forma və məzmunu təhlilə cəlb edilməlidir. Şagird təhlil zamanı bayatılarda aşılanan, çatdırılan əsas fikri öz sözləri ilə ifadə etməlidir. Bu Azərbaycan dili üzrə nitq bacarıqlarının, oxu vərdişlərinin inkişaf etdirilməsi ilə bağlı standartların reallaşdırılmasına yardımçı olacaqdır.

Müəllim bilməlidir ki, bayatıları zənginləşdirən digər bir xüsusiyyət də onlarda atalar sözlərinin, öyüd-nəsihətin, hikmətli sözlərin və alqışların, xalq əhval-ruhiyyəsinin, arzu və xəyallarının yer almasıdır. Prof. A. Hacıyev yazır ki, "qəribliyin, həsrət və nigarançılığın təsviri bayatılarda əsas motivdir. Bu duyğu ümumiləşir, haqsızlığa qarşı mübarizə, mənəvi qüdrət, təmkin və dözüm haqqında təsəvvür genişlənir. Etibar, sədaqət, humanist duyğular iztirab, tale və güzərandan şikayət təbii verilir" (8, s. 244).

Bu xüsusiyyətlər öz zənginliyi ilə bayatılara da xüsusi məna çaları qatır. Bayatılarda olan ortaq xüsusiyyətlərdən biri də yuxarıda qeyd etdiyimiz sözlərin əks olunmasıdır. Təhlillər apardığımız zaman öyüd-nəsihətin, hikmətli sözlərin və alqışların əks olduğu bayatılara da xeyli sayda rast gəlirik.

Su gələr arxa, haray!
Tökülər çarxa, haray!
İgid qürbətə düşsə,
Çağırar arxa, haray!

Bayatı özündə maraqlı öyüd və nəsihət, məzmun daşıyır. Şagirdin estetik zövqünün, həyata baxışının formalaşdırılamsında bu kimi bayatıların rolu kifayət qədər böyükdür:

Əzizim sözə qaldı,
Bir şirin sözə qaldı.
Yad qovuldu dağlardan,
El-oba bizə qaldı.

Bu bayatının məzmunu günümüzlə çox ciddi şəkildə səsləşir. Azğın düşmənin Azərbaycanın əzəli və əbədi torpaqlarından qovularaq çıxarılması, torpaqlarımızın erməni işğalçılarından təmizlənməsi bu bayatının hazırda nə qədər aktual olduğunu ortaya qoyur.

Elmi ədəbiyyatdan da məlumdur ki, estetik hisslər insanda estetik tələbatların əsasında durur: insanın gözəllikdən keçirdiyi dərin emosional həyəcanlar, hisslər onda bədii-estetik dəyərlərlə ünsiyyətə ehtiyac doğurur. Bu emosional həyəcanlar bayatıların məzmununda əks olunur, məna altında şagirdlərə aşılanır:

Əzizim el yoludu,
Bu gələn el yoludu.
Başımda bulud oynar,
Gözlərim sel yoludu.

Şagirdlərə bu bayatı təqdim edilir. Əvvəlcə şagird bayatını oxumalıdır. Şagirdlərin yaddaşını möhkəmləndirmək, nitqini inkişaf etdirmək, dünyagörüşünü genişləndirmək üçün, onların estetik zövqünü tərbiyə etmək üçün bütün düzgün tərtib edilmiş, seçilmiş şeirlər, o cümlədən bayatılar müstəsna əhəmiyyətə, rola malikdir. Düzgün təqdim edilmiş şeir şagirdin daxili aləmini zənginləşdirir, onda estetik zövq tərbiyə etməklə yanaşı, doğma yurdun gözəlliklərinə sevgi, həssaslıq hissi tərbiyə edir. "Yaxşı şeir uşağın qəlbinə gözəl musiqi qədər təsir edir" (11, s. 241).

Müəllim şagirdlərə bayatı nümunələrini oxumağı tapşırarkən bilməlidir ki, bu təqlid, yamsılama prosesi deyil. Oxu strategiyası düzgün tətbiq edilməlidir. Müəllim şagirdlərdən düzgün fasilə, bölgüdən istifadə etməyi, intonasiya qaydalarına əməl etməyi tələb etməlidir. Bunu həyata keçirmək üçün ibtidain sinif müəllimi özü şeiri ifadəli oxumaq üçün məsuliyyətlə hazırlaşmalı, ciddi şəkildə oxu qaydalarına əməl etməlidir. Müəllim anlamalıdır ki, o, nümunədir. Müəllimin yol göstərməsi ilə şagird şüurlu şəkildə mətni dərk etməli, mətnin ifadəliliyini anlamalıdır. Nümunənin əsas ideyası, sözlərin işlənmə xüsusiyyətləri şagird tərəfindən tam anlanmalıdır. Bəzən biz müşahidə aparırıq ki, şagirdlər sözlərin mənasına, ifadəliliyinə fikri vermədən mətni, nümunəni oxuyurlar. Bu əsərin məzmunu üzrə işin düzgün təşkil edilməməsindən irəli gəlir.

Müəllim şagirdə hansısa bir bayatını təqdim edir. Yaxud bir dərs əvvəl ona hansısa müəyyən bir mövzuda bayatını evdə axtarıb tapmağı tələb edə bilər, tapşırıq kimi verə bilər. Növbəti dəfə həmin bayatının məzmunu ilə əlaqəli suallar ünvanlamalıdır. Bilmək lazımdır ki, şagird bayatını mənimsəyibmi, onda ifadə olunan əsas fikri, məzmunu qavraya bilibmi?

Tutaq ki, şagird aşağıdakı bayatını evdə araşdıraraq gəlmişdir:

Eləmi yada məni
Satdılar yada məni.
Kimim, kimsənəm yox,
Bir salsın yada məni.

Müəllim şagirdə aşağıdakı kimi suallar təqdim edə bilər:

1. Bayatı kimin dilindən deyilir?
2. Bayatı nə haqqındadır?
3. Bayatının müəllifi narahatdırmı?
4. Narahatdırsa, nədən narahatdır?
5. Hansı tarixi hadisələrlə səsləşir?

Əlbəttə, şagirdlərin sinif və yaş səviyyəsindən asılı olaraq müəllim sualların çətinlik səviyyələrini dəyişdirə bilər. Yaxud da ki, başqa məzmunlu bayatı nümunəsində istifadə edilə bilər.

Müəllim yadda saxlamalıdır ki, şagirdlərin həm də qavramaları inkişaf etdiriməlidir. Qavrama mürəkkəb və davamlı şəkildə inkişaf etdirilməyi lazım olan idraki prosesdir. Müəllim bunun üzərində fasiləsiz olaraq çalışmalı, müxtəlif üsul və yollardan istifadə etməlidir. Çətin tapşırıqlar şagirdləri daha da düşünməyə, onların şüurunun, qavrayışının hər dəfə daha da inkişaf etdirilməsinə apara bilər.

Yeni tədris proqramları əsasında yazılmış, hazırda məktəblilərin istifadəsində olan ibtidai siniflər üzrə Azərbaycan dili dərsliklərində bir çox məqamlarda bayatı nümunələrindən tədris materialı kimi istifadə olunmuşdur. Qeyd etmək istəyirik ki, hazırkı dərsliklərdə təqdim edilmiş bayatı nümunələrinin kəmiyyəti ilə razı deyilik. Təhlillər göstərir ki, aşağı siniflərdə çox az sayda bayatı nümunlərinə yer verilmişdir.

Əlbəttə, müəllimin hazırda təlim-tərbiyə işində imkanları çox genişdir. O, dövlət standartlarını reallaşdırmaq üçün müxtəlif resurslardan səmərəli şəkildə istifadə edə bilər. Bununla yanaşı, dərslik əsas tədris resursudur, vəsaitdir, mənbədir. Onun verdiyi məzmun və mətn imkanlarından da müəllim geniş şəkildə istifadə etməlidir.

Məsələn, 2-ci sinif Azərbaycan dili dərsliyində "Bayatı" janrı haqqında məlumat verilmişdir. Burada qeyd edilmişdir ki, "Bayatı 4 misradan ibarət şeirdir. 1-ci, 2-ci və 4-cü misraları qafiyələnir. Bayatılar çox vaxt "əzizinəm" və ya "mən aşiq" sözləri ilə başlanır" (1, s. 178). Əslində bu məlumatla razı deyilik. Belə ki, 2-ci sinif şagirdi bu məlumatın nəzəri materialını dərk edə, mənimsəyə bilməz. Belə ki, burada "misra" və "qafiyə" sözləri yuxarı siniflərdə aşılanması gərəkli olan nəzəri materiallara aiddir. Odur ki, həmin materialın 2-ci sinifdə əks olunması düzgün hesab edilməməlidir. Bu səhifədə belə bir bayatı təqdim olunmuşdur:

Əzizinəm din barı,
Danış barı, din barı.
İgidə tab gətirməz,
Yağı tikən min barı.

Bu bayatı haqqında şagirdə müəyyən tapşırıqları həll etmək də tapşırılır. Müəllim sinifdə bayatının oxusu və təhlili üzrə səmərəli fəaliyyətə apara bilər. Folklorşünas M.Həkimov yazır ki, "folklor ucu-bucağı görünməyən sonsuz bir ümmandır. Onun dərindən-dərin qatlarına enmək, oradan bənzərsiz inciləri üzə çıxarmaq folklorşünaslığımızın şərəfli vəzifəsi olmuş və yenə də olmaqdadır" (9, 4). Bu cəhətlər ibtidai sinif müəllimi üçün əsas açar, yolgöstərən mayak olmalıdır. O bilməlidir ki, həcmcə kiçik olmasına baxmayaraq, bayatı ilə şagirdlərə də kifayət qədər ciddi və geniş həcmdə hiss və duyğular, estetik zövq formalaşdırmaq mümkündür.

Ana dilinin tədrisi ilə bağlı araşdırmalar aparan F.Əliyeva yazır ki, "bayatılar dil sadəliyi və aydınlığı baxımından da maraqlıdır. İbtidai sinifdə bayatıların dili üzərində aparılan iş paralel şəkildə nitq və təfəkkür inkişafına daha artıq kömək edir. Çünki bayatıların lüğət tərkibinin əsasını xalis Azərbaycan sözləri təşkil edir. Bununla bərabər, bəzi bayatılarda ərəb, fars və başqa dillərdən keçən sözlər, ifadələr də vardır. Müəllim bu tipli arxaik sözlərin şərhinə, onların məna və məzmunun açıqlanmasına səy göstərərsə, şagird təfəkkürünü elmi-metodik cəhətdən zənginləşdirə bilər" ( 7, s. 20) .

2-ci sinif Azərbaycan dili dərsliyində başqa bir bayatı nümunəsi də təqdim edilir. Aşağıda həmin nümunəvi veririk:

Mən aşiqəm gələndə,
Dərdim sənlə böləndə.
Namərdə bel bağlama,
Kölgəndə kölgələnə. (1, s. 179).

Bu misraların məzmunun açsaq, "dərdimi səninlə bölürəm. Bil ki, namərdə bel bağlamaq olmaz. İmkan vermə ki, o sənin kölgəndə kölgələnə" fikirləri ortaya çıxacaq. İfadələrin məna dərinliyini təhlil etdirmək lazımdır və bu zaman şagirdə istiqamətləndirici suallar verilməlidir:

1. Şeir kimi dilindəndir?
2. Müəllif burada nə demək istəyib?
3. Namərd kimə deyilir?
4. Namərd burada təriflənir, yoxsa pislənir?

5. “Bel bağlamaq” nə deməkdir?
6. Namərdə niyə bel bağlamaq olmaz?
7. Kölgəndə kölgələnməyə niyə imkan vermək olmaz? Və s.

Müəllim bayatını düzgün və lazımi səviyyədə tədris etməli, qarşıya qoyulmuş təlim məqsədlərinə çatmaq üçün çalışmalıdır.

Bayatılar şagird şəxsiyyətini müəyyənləşdirməyə, onun dünyagörüşünün, nitqinin inkişafında əhəmiyyətli rol oynamış nümunələr kimi daima ibtidai siniflərdə müəllim üçün əhəmiyyətli resurs kimi qalmalı, tədris prosesində davamlı olaraq istifadə edilməlidir.

**Məqalənin aktuallığı.** Şagird şəxsiyyətinin inkişaf etdirilməsi, onun estetik tərbiyəsinin qaydasında formalaşdırılması orta məktəbin qarşısında dayanan əsas məsələlərdəndir. Bu işin təşkilində milli-mənəvi dəyərləri, poetik keyfiyyətləri özündə əks etdirən bayatıların önəmi çox böyükdür. Məqalə həmin məsələyə həsr edilmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə şifahi xalq ədəbiyyatının tədrisi məsələləri, bayatıların bu istiqamətdə tədris resursu olaraq istifadəsi məsələləri araşdırılır. Bununla bağlı ölkəmizdə yazılmış bir çox elmi araşdırmaların nəticələrindən ümumiləşdirilərək istifadə edilmişdir. Tədrislə bağlı müəyyən yanaşma və təhlillərin səmərəli aparılması yollarının göstərilməsi məqalənin yeniliyi kimi qiymətləndirilməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatdan alınan qənaətlərdən ibtidai siniflərdə Azərbaycan dili fəninin tədrisi zamanı, folklor janrlarının tədrisdi məsələləri ilə bağlı araşdırmalarda istifadə edilə bilər.

## Ədəbiyyat


1. Azərbaycan dili. 2-ci siniflər üçün dərslik. Bakı, 2018.
2. Azərbaycan folklor antologiyası. 2 cilddə / Tərtib edəni Ə. Axundov. Bakı, 1968.
3. Azadəliyeva Ş. Təhsil və tərbiyənin müasir problemləri. Bakı, 2011.
4. Bədəlova Ə. Azərbaycan xalq pedaqogikası. Bakı, 2009.
5. Cəfər M. Estetik zövq haqqında. Bakı, 1965.
6. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1992.
7. Əliyeva F. Ana dilinin tədrisi prosesində folklor nümunələri vasitəsilə şagirdlərin bədii təfəkkürünün inkişaf etdirilməsi. Bakı, 2011.
8. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1996.
9. Həkimov M. Xalqımızın deyimləri və duyumları. Bakı, 1986.
10. Xəlil Rza Ulutürk. Rəsul Rza həsrəti. Bakı, 2009.
11. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2011.
12. Mikayılov Ş. Ədəbiyyat nəzəriyyəsi. Ümumtəhsil məktəblərinin 9-11-ci sinifləri üçün dərs vəsaiti. IV nəşr. Bakı. 2008.
13. Mir Cəlal, Zəlilov P. Ədəbiyyatşünaslığln əsasları. Bakı, 1988.
14. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2007.
15. Veysova Z. Fəal interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007.

**С.Б. Асадова**

## Влияние учения Баяти на художественно-эстетическое мировоззрение студентов

### Резюме

В статье рассматриваются вопросы преподавания жанра баяти в начальной школе. Анализируется роль и значение этого жанра в формировании эстетического мировоззрения студентов.

**S.B. Asadova**

## Influence of Bayati's teaching on students' artistic and aesthetic worldview

### Summary

The article examines the issues of teaching the bayati genre in primary school. The role and importance of this genre in the formation of students' aesthetic worldview is analyzed.

**Redaksiyaya daxil olub:** 16.12.2020